# 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb

**20 Yanvar xalqımızın qan yaddaşıdır. 20 Yanvar faciəsi bizlərdən uzaqlaşdıqca, o dəhşətli günlərin acı xatirəsi bir o qədər ürəkləri ağrıdır, törədilmiş vəhşiliklərə intiqam hissini alovlandırır.**

Kürdəmir Rayon Gigiyena və Epidemiologiya Mərkəzində 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsinə həsr olunmuş anım tədbirində rayon icra hakimiyyəti ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, mərkəzin direktoru Kəmalə Abdurəhmanova və mərkəzin işçiləri iştirak edirdilər. Tədbir iştirakçıları əvvəlcə facià qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri giriş sözü ilə açan Kürdəmir Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Kəmalə Abdurəhmanova bildirdi ki, Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 30 il ötür. 1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törətdilər. Lakin bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilmədi, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşdu.

İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov çıxışında dedi ki, otuz il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olub, 744 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib, nəticədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulub. Bakıdakı 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya adlandırıb. Hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə ulu öndərin bu cür bəyanatla çıxış etməsi bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahi şəxsiyyətlər atırlar.

Çıxış edənlər ümummilli lider Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymətin verildiyini, Milli Məclisin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsini hərbi təcavüz və cinayət kimi qiymətləndirildiyini vurğulayıblar.

Anım tədbirində müstəqilliyimizin möhkəmləndirilməsində dövlət başçımız cənab İlham Əliyevin daxili və xarici siyasət sahəsində fəaliyyəti yüksək qiymətləndirilib.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**

Respublika.- 2020.- 16 yanvar.- S.6.